İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: _____

Oxu tarixi: _____

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

TANRININ ADAMLARI

(hekayələr)

RUZBEH MƏMMƏD

parlaq
İMZALAR

Baş redaktor:	Toğrul MUSAYEV
Redaktor:	Hədiyyə ŞƏFAQƏT
Korrektor:	Turac ELDARQIZI
Tərtibatçı:	İsmayıl SÜLEYMANLI
İllüstrator:	Sevinc QULİYEVA
Cildin dizaynı:	Xədicə İZABAKAROVA

Ruzbeh Məmməd
TANRININ ADAMLARI *(hekayələr)*

Bakı, “Parlaq İmzalar” Nəşriyyatı – 2026, 104 səh.

© Ruzbeh Məmməd / 2026
© Parlaq İmzalar MMC / 2026
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 161

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

16+

Mətbəə: “AVE PRİNT” MMC
OKTYABR / 2026

Mündəricat

Ağrı 7

At bilicisi 15

Dumanlı dağların adamları 23

Əmrəli müəllimin qəbir daşı 29

Kəndin dəlisi 39

Molla Binnət ölməsin 49

Yarım soyad 57

Qədim məmləkətin nağılı 63

Qırqovul meşəsinin sərçələri 71

Heç nə yaxşı olmayacaq 79

Xatirələr könlümü isidəndə 85

Qurbağalar qəsəbəsi 95

Ağrı



Soyuq, buz kimi dağlarda keşməkeşli həyat sürə-sürə yaşlaşan Səhran heç vaxt ağlına gətirməzdi ki, bir gün öləndə ona ehsanı qızları verəcəklər. Çünki həmişə arzu etmişdi ki, tabutu oğlu Səmədin çiynində getsin. Bu arzularla illəri qovub necə qocalmışdısa, elə bil divardan asılmış şəkildəki onun cavanlığı deyilmiş. Bir şəklinə baxır, bir də güzgüdə özünə, sonra da bərk darıxırdı. Görəndə ki belə pis darıxır, özünü kəndin təpəsinə verib keçən günləri yada salırdı. Ən çox da yağışlı və çiskinli havalarda.

Belə darıxdığı günlərdən biri idi, paltosunu çiyninə atıb ağır-ağır yerişlə təpəyə qalxdı.

Əlini ağappaq saqqalına çəkib, yorğun, bir o qədər də çəlimsiz barmaqları ilə kövrəlmiş gözlərini ovuşdurdu. Elə dərindən ah çəkdi ki, bütün çiyin əzələləri yığılıb-boşaldı. Bomboz çöllüklərə baxdı. Cibindən siqaret çıxardıb yandırdı, bir qullab alıb, tərtəmiz ha-

vaya buraxdı. Gözləri dolmuşdu, bir nəfəsə ağlamaq istəyirdi, amma ağlamadı. Bəlkə də, elə zülüm-zülüm ağladı, amma bu fəryadı eşitmək olmazdı. Qara bulud kimi fikirlər, duyğular içinə çökmüşdü və qəfil dedi ki, bu daşlıqda anamla gəzərdik, indi isə buradan anamı görmək üçün qəbiristanlığa baxıram...

Səməd onda lap balaca idi. Hələ burnunu köynəyinin qoluna silirdi. Bir də bütün günü hinin qabağında otura-otura "hingüdən" adı qazanmış Səriyyənin toyuqlarının yumurtasını oğurlayırdı. Hingüdən Səriyyə də çıxıb taxıl xırmanının ortasında elə söyüşlər söyürdü, o söyüşləri heç kişilər dilinə almazdı. Hələ bir dəfə xırmanda bərk qarğış etdi: dedi, mənim qırmızı beçəmin yumurtasını oğurlayanın görüm həyəti toyuq-cücəyə həsrət qalsın, ona toy qismət olmasın, bacıları qarıyıb evdə qalsın.

Səməd də seyid Fatmanın evinin arxasında böyürtkən koluna girib hingüdən Səriyyənin qarğışlarını bir-bir barmağı ilə sayırdı. Dəqiq yəqin etmişdi ki, qarğışlar ona aiddir. Kim bilərdi, gün gələcək, Səmədgilin həyətində bir beçə əmələ gəlməyəcək ki, kəsib, bişirib qonaq qabağına qoysunlar.

Səməd evin tək oğlu idi. Özündən böyük iki bacısı vardı. Anaları o, uşaq olanda ölmüşdü. Səmədin atası Səhran kişi arvadından sonra düz otuz yeddi il dul yaşamışdı, Sovet dağılandan sonra da ömrünü həyət-bacada keçirirdi. "Evlən" deyənlərə cavab verirdi ki,

gedin, rəhmətlikdən soruşun, görün nə deyir? Mən ondan xəbərsiz iş tuta bilmərəm.

Bir gün kənddə arvadlar pıçıldaşdılar ki, Allaha çox şükür, hingüdən arvadın duası qəbul olmayıb, Səməd evlənir. Səməd daha burnunu qoluna silmirdi, yumurta da oğurlamırdı, yekə kişi olmuşdu. Haqqında çıxan şayiələr isə bitib-tükənmirdi. Deyirdilər, Səməd "qızbibidir". Allah bilir, bəlkə, elə bunu da o hingüdən Səriyyə uydurmuşdu. Kəndin bikar arvadlarının pıçıldaşması bütün elə-obaya yayılandan sonra, hamı yəqin etdi ki, Səməd həqiqətən evlənir.

Qış ayının ortalarında Səməd üçün toysuz-çalğısız bir qız gətirdilər. Səməd də sevindiyindən işıldayan kəmərini belinə vurub, hərdən eyvanda var-gəl edirdi. Hingüdən qarı da, çox güman, evində bu işin baş tutmaması üçün qarğışlar tökürdü.

Səməd evlənəndən sonra kənddə başını mal-qara ilə qatırdı. İki bacısı ilə atası da əvvəlki qədər darıxmırdılar. Bircə çətinlik bu qədər adamın balaca bir otağa sığışması idi. Bunu görən Səməd fikirləşdi ki, mal-qara ilə ev tikə bilməyəcək. Qərar verdi, kənddən çıxıb getsin. Arvadını da özü ilə aparsın. Beləcə, bu ailənin xoşbəxtliyi uzun çəkmədi. Hingüdən qarının qarğışları yarımçıq da olsa, öz bəhrəsini verdi.

İllərin üzü sərtdir, ya da bəzi insanlara sərt üzünü göstərir. Səhran kişi iki qızını saxlamaq üçün üç baş inəyə göz bəbəyi kimi baxırdı. Doğulan buzovları sa-

tıb evi dolandırırdı. Hərdən görürdün, yağışlı günlərdə kəndin ayağında daşa söykənib oturub və görən kimi bilirdin, Səhran kişi Səməddən nigarandır. Baxanda adamı bir balaca vahimə də basırdı. Bəlkə də, ürəyində o da heç cürə bu balaca kəndə sığmazdı, amma gedə bilmirdi. Bircə Səmədin qayıtmasına ümid edirdi. Həm də tezliklə.

Səməd isə geri qayıdıb-qayıtmayacağını bilmirdi. İndi atasını, bacılarını elə çox fikirləşmirdi.

Qəbirqazan Niftəli tez-tez Səhrandan Səmədi xəbər alırdı:

– Səməd nə yaman atdı bu kəndin daşını, Səhran kişi?

– Hə, elə oldu. Amma işləri çoxdu, zəng vurmuşdu.

Hiss olunurdu ki, oğlunu başqasının ayağına vermək istəmir.

– Nə deyir, gəlmək barədə fikirləşmir? – Niftəli kinayə ilə soruşurdu.

– Bu barədə heç nə danışmamışıq, amma aman-zaman iki bacısı var, heç olmasa, onlara görə qayıdar, mütləq qayıdacaq. Bilirəm.

Yenə bir yağışlı gündə Səhran çənəsini əlindəki ağaca söykəyib boz çöllükdə inəkləri otarır, həzin-həzin mahnı da oxuyurdu:

Duman çəkil dağlardan, duman çəkil dağlardan,
Dağlar, başına dönüm, torpaq, daşına dönüm.

Elə qəmli-qəmli oxuyurdu, elə bil bu dünyada hamı Sehran kişini atıb getmişdi, daha gəlməyəcəkdi. Məgər belə deyildi? Əvvəl arvadını itirmişdi, sonra anasını, indi də oğlu getdiyi yerdən qayıtmırdı. İki bəxti açılmamış qızı ilə ömür sürə-sürə, bir yandan da Səmədin biganəliyi onu hər addımda taqətdən salırdı.

Hingüdən qarı da qırmızı beçələrini uşaqlarına tapşırıb ölmüşdü. Amma qarğışı camaatın qulağından getməmişdi. Elə bil hər ilin yayında taxıl biçinindən sonra xırmanda səsi eşidilirdi: deyirdi, ay toyuqlarımı sayanlar, inəklərimin südünə göz dikənlər, sizi görüm, balanızın köynəyi sovxaya qalsın. Hələ ürəyi soyumayanda daha ağır qarğışlar edirdi ki, bütün kənd-kəsək onun qarğışlarından nəsibini almışdı.

Səhran kişi həmişə hingüdən arvada deyirmiş ki, oğlumun canına and olsun, qayıdıb gələndə sənə yaxşı don tikdirəcəyəm. Amma hingüdən qarı o günü görməmişdi. Sonra da Səhran kişi...

Yaz üzü Səhran kişini elə anası yatan qəbiristanlıqda dəfn etdilər. Oğlu Səmədi görmədən, boyuna-buxununa yalvarmadan. Əcəl daha nə qədər gözləyəydi? Səhərin günəşində inəklərini kövşənliyə ötürüb, adəti üzrə ağappaq saqqalına sığal çəkdi – son sığalını. Evə qayıdıb gözlərini dünyaya yumdu. O gözlər daha kövrək və bəxti açılmamış qızlarını görməyəcəkdi. Sonra camaat yığışdı. Arvadlar ağlaşdılar, kişilər Səhran kişinin cənazəsini çiyinlərinə alıb dəfn etməyə apardılar.

Səssiz-səmirsiz, heç kimə heç nə demədən, heç kimdən heç nə soruşmadan. Adama elə gəlirdi, Səhran kişi özü tabuta girib, çıxıb oturub kəndin kişilərinin çiynində və qəbiristanlığa tələsir. Sanki özü də səbirsizliklə bu günü gözləyirmiş.

Beləliklə, boz çöllüklərdən qəbiristanlığa boylanan kişi yoxa çıxdı.

Tabut həyətdən çıxar-çıxmaz isti plov qoxusu bütün kəndə yayıldı. Hamı Səhran kişinin ehsanından yeyib, "Allah rəhmət eləsin" deyib dağılışdı. Buxarıdan çıxan tüstü piltə-piltə göyə yayıldı. Bəxti açılmamışları bir müddət: "Ay dədə!" – deyib nalə çəkdilər. Əl ağacı həyətdə yetim-yetim boynunu bükdü. Yağış sel olub kövşənliklərə axdı...